# Həftəlik *Bülleten*



**107**

**5 Sentyabr 2025**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və lahiyələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Azərbaycanda tikinti icazələrinin vaxtı və xərcləri sorğu əsasında müəyyən ediləcək.**

Azərbaycanda tikinti və istismar icazələrinin verilməsi prosesində səmərəliliyin yüksəldilməsi istiqamətində yeni addımlar atılır. Bu, Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Biznesin yerləşdiyi yer (əmlakın qeydiyyatı və icarəsi)" indikatoru üzrə 2025-ci il Yol Xəritəsində öz əksini tapıb. Belə ki, Elektron Tikinti Portalında canlı çat və elektron bildiriş funksiyalarının tətbiqi üçün texniki və institusional imkanlar qiymətləndiriləcək, maliyyələşmə ehtiyacları müəyyən ediləcək və təkliflər hazırlanaraq Komissiyaya təqdim olunacaq. Həmçinin, rəy və texniki şərtlərin alınması ilə bağlı mövcud problemlərin araşdırılması və həlli nəzərdə tutulur. Müvafiq qurumların rəy və texniki şərtləri qanunvericilikdə göstərilən müddətlərdə təqdim etməsi nəzarətdə saxlanılacaq, bu proseslə bağlı rüblük məlumat hazırlanaraq işçi qrupun iclaslarında müzakirəyə çıxarılacaq. Bundan başqa, sahibkarlar arasında tikinti və istismar icazələrinin verilməsi üçün tələb olunan vaxt və xərclərin qiymətləndirilməsi məqsədilə sorğu keçiriləcək. Sorğunun nəticələri təhlil olunacaq və əldə edilən göstəricilər əsasında müvafiq qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim ediləcək. Sənədin icra müddəti oktyabrın 1-nə qədərdir.



**Azərbaycanda tikintiyə nəzarət də – özəl şirkətlərə tapşırılacaq.**

Azərbaycanda tikinti sahəsində aparılan islahatlar çərçivəsində gözlənilən yeniliklərdən biri də tikintiyə nəzarətin bir hissəsinin özəl şirkətlərə həvalə edilməsidir.

Bu Dünya Bankı Qrupunun “Business Ready” hesabatının “Biznesin yerləşdiyi yer (tikintiyə icazələrin verilməsi)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2025-ci il üzrə Yol Xəritəsində nəzərdə tutulub.

Yol xəritəsinin bir hissəsi tikinti sahəsində qaydaların və ətraf mühitlə bağlı icazələrə dair tənzimləyici norma və qanunvericiliyin təkmilləşdirilməsinə həsr edilib.

Burada nəzərdə tutulan tədbirlər arasında beynəlxalq təcrübə nəzərə alınmaqla tikintiyə dövlət nəzarəti mexanizminə özəl şirkətlərin cəlb olunması imkanlarının araşdırılması da var. Eyni zamanda tikintiyə nəzarət, o cümlədən istismara hazırlıq yoxlaması ilə bağlı məsuliyyət səviyyəsinin müəyyən edilməsinə dair layihənin hazırlanaraq təqdim edilməsi də nəzərdə tutulur.



**“Mədrəsə” tarix-memarlıq abidəsinin bərpası üçün ilkin işlərə başlanılıb.**

Ordubad şəhərində yerləşən “Mədrəsə” tarix-memarlıq abidəsinin bərpası üçün ilkin işlərə başlanılıb.
“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın 2025–2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planında öz əksini tapmış layihələr, habelə investisiya layihələri Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən diqqətdə saxlanılır, bu istiqamətdə bir sıra işlər həyata keçirilir.
Görülən işlərin davamı olaraq "Mədrəsə" tarix-memarlıq abidəsinin layihə-smeta sənədlərinin hazırlanması məqsədilə "BİMD" QSC ilə müqavilə bağlanılıb.
Müqaviləyə əsasən şirkət tərəfindən XVIII əsr memarlıq abidəsinin layihə-smeta sənədləri hazırlanacaq.
Gələcəkdə də muxtar respublika ərazisində tarixi abidələrin qorunması və bərpası istiqamətində işlər davam etdiriləcək.



**Azərbaycanda sənaye zonalarında məhsul istehsalı son 10 ildə 63 dəfədən çox artıb.**

2015-ci ildə sənaye zonalarında 271 milyon manatlıq məhsul istehsal edilmişdirsə, 2025-ci ilin birinci yarısında qeyd olunan dövrdən təqribən 63,5 dəfədən çox 17,2 milyard manatlıq məhsul istehsal edilib.

Bu barədə İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin mətbuat katibi Elçin Kazımlı deyib. Onun sözlərinə görə, indiyə qədər agentliyin müəssisələri tərəfindən istehsal olunan qeyri-neft sənayesi məhsulları 70-dən çox ölkəyə ixrac edilir. Məhsullar Şərqi və Qərbi Avropa, Şimali və Cənubi Amerika, Asiya, MDB ölkələri, Türkiyə və digər bölgələrə göndərilir. E. Kazımlı deyib ki, əsas ixrac məhsulları arasında tikinti kimyəviləri, polad, polimer borular, sürtgü yağları, polimerlər, karbamid, kabel, şüşə lövhələr, keramik plitələr, tütün məmulatları, ipliklər, elektrodlar, balıq yemi məhsulları, divar kağızları, müxtəlif növ ayaqqabılar və digər məhsullar yer alır: "Azərbaycanın sənaye zonalarında ilk məhsul istehsalı 2015-ci ildə Sumqayıt Kimya Sənaye Parkında başlayıb. Əgər həmin il milyon manatlarla məhsul istehsal edilmişdisə, hazırda istehsal həcmi milyardlarla manatla ölçülür. O əlavə edib ki, bu ilin birinci yarısında agentlik tərəfindən 583 milyon manatlıq məhsul ixrac edilib ki, bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 22,2 % çoxdur. Qeyri-neft sənayesi məhsullarının ixracında isə bu göstərici 28,3 %-lik paya malikdir.



**Azərbaycanda sağlamlığa zərərli tikinti materiallarına qadağa qoyula bilər.**

Azərbaycan hökuməti tikinti sahəsində qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində yeni tədbirlər paketi hazırlayır. Bu, Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Biznesin yerləşdiyi yer (əmlakın qeydiyyatı və icarəsi)" indikatoru üzrə 2025-ci il Yol Xəritəsində öz əksini tapıb. Yeni mexanizmlər tikintiyə nəzarət və təhlükəsizlik standartlarının dəqiqləşdirilməsini nəzərdə tutur. Tikinti ərazilərində ekoloji və radioloji risklərin qiymətləndirilməsi və idarə olunması üçün hüquqi baza yaradılacaq. Özbaşına tikintilərin qarşısının alınması üzrə məsuliyyət sərtləşdiriləcək. Xüsusilə mühafizə və sanitar zonalarda, həmçinin neft-qaz yataqları ərazilərində qanunsuz tikinti işlərinə qarşı nəzarət gücləndiriləcək. Şəhərsalma və Tikinti Məcəlləsində istifadə olunan anlayış və müddəalar dəqiqləşdiriləcək, vətəndaşların və sahibkarların maarifləndirilməsi üçün normativ dəyişikliklər ediləcək. Sağlamlığa zərərli tikinti materiallarının istifadəsinə məhdudiyyət qoyulacaq. Tikintiyə dövlət nəzarətinə özəl şirkətlərin cəlb olunması imkanları araşdırılacaq. Bundan başqa, tikinti layihələrinin ekspertizası və xərclərin hesablanması qaydalarının təkmilləşdirilməsi, eləcə də yükdaşıyan konstruksiyalarda yaranan problemlərə görə məsuliyyətin müəyyən edilməsi nəzərdə tutulur. Hazırlanacaq təkliflər beynəlxalq təcrübəyə uyğun olaraq Komissiyaya təqdim ediləcək. Sənədin icra müddəti oktyabrın 1-nə qədər müəyyən edilib.



**Azərbaycanda gips məmulatları istehsalı 25% artıb.**

Bu ilin yanvar-iyul aylarında Azərbaycanda 83,5 min ton gips məmulatlar istehsal edilib.

Bu barədə Dövlət Statistika Komitəsinə istinadən xəbər verilir.

Məlumata görə, bu, 2024-cü ilin eyni dövrünün göstəricisi ilə müqayisədə 16,8 min ton və ya 25,2% çoxdur.

Cari ilin avqustun 1-nə hazır məhsul ehtiyatı 2,9 min ton təşkil edib.

Eyni zamanda 2025-ci ilin ilk 7 ayında Azərbaycanda gips məmulatları istehsalının 80,7 min tonunu tikinti gipsi təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 30,7 min ton və yaxud 61,4% çoxdur.

Qeyd edək ki, Azərbaycanda tikinti materiallarının istehsalı sahəsində 2025-ci ilin yanvar-iyul aylarında istehsalın ümumi dəyəri 782,9 milyon manat olmaqla, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 5,8 faiz azalıb.



**Baku Build 2025 30-cu yubiley inşaat sərgisində ATMİA ilk dəfə olaraq üzvləri ilə birgə vahid stendlə iştirak edəcək.**

Baku Build 2025 30-cu yubiley inşaat sərgisində ATMİA ilk dəfə olaraq üzvləri ilə birgə vahid stendlə iştirak edəcək. Tədbirin təşkilatı məsələlərin müzakirəsi üçün Baku Build 2025-in layihə rəhbəri və ATMİA üzvləri bir araya gəldilər. ATMİA-da keçirilən görüşdə stendin yeri, dizaynı və digər vacib suallara aydınlıq gətirildi. Xatırladaq ki, ATMİA Baku Build 2025 ilk günü, 14 oktyabr, saat 16.00-da “Kompromissiz Keyfiyyət: Tikinti materiallarında keyfiyyət modeli” adlı forumunu da təşkil edəcək.
Ətraflı məlumat üçün: 0102500324






**Hörmətli sahibkarlar!**

25-26-27 sentyabr 2025-ci il tarixlərində Bakı Ekspo Mərkəzində "SMART LIFE EXPO – International Exhibition in Azerbaijan 2025" sərgisi keçiriləcək. Sərgidə əsas diqqət tikinti və dekorasiya malları, tikinti materialları, həmçinin ev və ofis üçün ağıllı sistemlərə yönəldiləcək. 100-dən çox Çin və yerli şirkət məhsullarını və xidmətlərini təqdim edəcək.
Sərgi haqqında geniş məlumat: https://az.b2bagro.ru/china-expo-2025
Sərgiyə giriş ziyarətçilər üçün ödənişsizdir.
Qeydiyyat: 010 250 03 24

# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: BAKU WATER WEEK 2025**

**Tarixlər: 10 - 12 sentyabr 2025-ci il,**

**Məkan: Bakı Ekspo Mərkəzi, Bakı (Azərbaycan)**

Həm ekologiya, həm də dövlətin su təhlükəsizliyi baxımından Azərbaycan Beynəlxalq Su Ehtiyatlarının İdarə Edilməsi Sərgisi və Konfransı

**Sərginin adı: NOBEL KAPEX FAIR 2025**

**Tarixlər: 10-13 sentyabr 2025-ci il,**

**Məkan: Tüyap Kayseri Sərgi və Konqres Mərkəzi, Kayseri (Türkiyə)**

Qapı, Pəncərə və Aksesuarlar Sərgisi. Kapex, Türk Qapı sektorunun keyfiyyətini, yüksək həcmini və gücünü dünyada nümayiş etdirərək qapı, aksesuar və əlaqəli sənayelərin ixracını əhəmiyyətli dərəcədə artırmağı hədəfləyir.

**Sərginin adı: INTERIOR DESIGN KOREA 2025**

**Tarixlər: 11 - 14 sentyabr 2025-ci il,**

**Məkan: Bexco (Busan Sərgi və Konqres Mərkəzi), Busan (Cənubi Koreya)**

İnteryer dizaynı, bəzək materialları və məhsullarına həsr olunmuş sərgi interyer üçün istehlak mallarının tendensiyalarını təqdim edir və təbliğ edir.

**Sərginin adı: IGIC UAE - INTERNATIONAL GEOTECHNICAL INNOVATION CONFERENCE 2025**

**Tarixlər: 13-14 sentyabr 2025-ci il,**

**Məkan: Dubay (BƏƏ - Birləşmiş Ərəb Əmirlikləri)**

IGIC Forumu MENA regionunda hündür binalar, göydələnlər, nəqliyyat, mülki infrastruktur layihələri üçün dərin təməllərin və yeraltı infrastrukturların layihələndirilməsi və tikintisi zamanı qarşıya çıxan çoxsaylı problemləri həll edir.

## SARAY QƏSƏBƏSINDƏ SOSIAL EVLƏR TIKILƏCƏK - 26 MİLYON MANATLIQ TENDER ELANI.

“MİDA” MMC açıq tender elan edib.
Elanda Abşeron rayonu, Saray qəsəbəsində 4,5 ha torpaq sahəsində yerləşən 5 nömrəli 12 mərtəbəli, həmçinin 6 və 7 nömrəli 16 mərtəbəli çoxmənzilli yaşayış binalarının tikintisi xidmətinin satın alınması nəzərdə tutulur.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi –

Vüqar Təyyar oğlu Əliyev, sektor müdiri
Email: vugar.aliyev@mida.gov.az
Əlaqə telefonu: +994 12 594 54 01 (239)



**FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN ƏSASLI TİKİNTİ İDARƏSİ TENDER KEÇİRİR.**

Fövqəladə Hallar Nazirliyinin Əsaslı Tikinti İdarəsi açıq tender elan edir. Elanda FHN Dövlət Yanğından Mühafizə Xidmətinin Bakı və Gəncə şəhərlərində 3 və 4 çıxışlı yanğınsöndürmə depo binalarının (5 ədəd) bərpa və tikintisinin layihə-smeta sənədlərinin hazırlanması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Orxan Bədəlov, Müqavilə və satınalmalar sektorunun böyük məsləhətçisi
Email: orkhan.badalov@fhn.gov.az
Əlaqə telefonu: +994 12 512 30 11



## "ƏSASLI TİKİNTİ VƏ TƏCHİZAT" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ TENDER KEÇİRİR.

"Əsaslı Tikinti Və Təchizat" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tender elan edir.
Elanda Şabran şəhərində yerləşən Heydər Əliyev Mərkəzinin cari təmir işləri ilə bağlı layihə-smeta sənədlərinin hazırlanması xidmətinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Elmir Murqzov, Satınalma mütəxəssisi
Email: tender@culture.gov.az
Əlaqə telefonu: +994 12 565 01 47 (448)



**NAXÇIVAN SU MELİORASİYA SİSTEMLƏRİNİN İSTİSMARI İDARƏSİ TENDER KEÇİRİR.**

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi "Regional Su Meliorasiya Xidməti" Publik Hüquqi Şəxsin Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi açıq tender elan edir.
Elanda Heydər Əliyev su anbarının Sağ Sahil və Sol Sahil kanalının təmiri üçün mal-materialların satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Vüsal Talıbov, Şöbə müdiri
Email: office@ndsea.gov.az
Əlaqə telefonu: +994 36 545 18 60



## ƏRAZİ TİKİNTİ-PLANLAŞDIRMA MƏRKƏZİ TENDER KEÇİRİR.

Ərazi Tikinti-planlaşdırma Mərkəzi açıq tender elan edir.
Elanda Gəncə şəhəri, Atatürk pr-də inşa ediləcək çoxmənzilli yaşayış binaları üçün ərazinin şəhərsalma əsaslandırılması və inşa ediləcək yaşayış binalarının layihə-smeta sənədlərinin hazırlanması xidməti nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi –

Rüfət Qasımov, Mühəndis
Email: rufat.qasimov@arxkom.gov.az
Əlaqə telefonu: +994 12 492 31 89 (771)



**AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ TENDER KEÇİRİR.**

Azərbaycan Memarlıq Və İnşaat Universiteti açıq tender elan edir. Elanda Azərbaycan Memarlıq və İnşaat Universitetinin 1 saylı tədris binasının texniki mərtəbəsibdə və Universitetin girişində cari təmir işləri nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi –

Səfərov Sarvan, Təhcizat
Email: servan_685@mail.ru
Əlaqə telefonu: +994 12 510 64 31





**www.atmia.az**